**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# XX ƏSRDƏ AZƏRBAYCAN YAZIÇILAR BİRLİYİNDƏKİ ƏDƏBİ MÜZAKİRƏLƏRİN YARADICILIQ PROSESLƏRİ VƏ ƏDİB TALELƏRİNƏ TƏSİRİ

| | |
|---|---|
| İxtisas: | 5716.01 – Azərbaycan ədəbiyyatı |
| Elm sahəsi: | Filologiya |
| İddiaçı: | **Aynur Məzahir qızı Həsənova** |

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2023**

Dissertasiya işi Azərbaycan Universitetinin Azərbaycan dili və ədəbiyyatı kafedrasında yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbər: | AMEA-nın həqiqi üzvü,<br>filologiya elmləri doktoru, professor<br>**Rafael Baba oğlu Hüseynov** |
| Rəsmi opponentlər: | AMEA-nın müxbir üzvü,<br>filologiya elmləri doktoru, professor<br>**Nüşabə Həmid qızı Araslı** |
| | filologiya elmləri doktoru, professor<br>**Cəlil Qərib oğlu Nağıyev** |
| | filologiya üzrə fəlsəfə doktoru<br>**Sevinc Ayaz-Vəfalı qızı Heydərova** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi nəzdində fəaliyyət göstərən ED 1.31 – Dissertasiya şurası.

| | |
|---|---|
| Dissertasiya şurasının sədri: ____________ | AMEA-nın həqiqi üzvü,<br>filologiya elmləri doktoru, professor<br>**Rafael Baba oğlu Hüseynov** |
| Dissertasiya şurasının elmi katibi: ____________ | filologiya üzrə fəlsəfə doktoru<br>**İlhamə Mürsəl qızı Gültekin** |
| Elmi seminarın sədri: ____________ | filologiya elmləri doktoru, professor<br>**Vaqif Soltan oğlu Verdiyev** |

# DİSSERTASİYA İŞİNİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** 1934-cü ildə Azərbaycanda da yaradılmış Yazıçılar İttifaqının (Yazıçılar Birliyi) fəaliyyəti ilə ədiblərimizin taleləri arasındakı sıx bağlılıq bu ictimai təşkilatın əhəmiyyətini bir daha ortaya qoyur.

Ötən əsrdə Yazıçılar Birliyində gedən ədəbi müzakirələr 1934-cü ildən başlayaraq yüzilliyin sonunadək cərəyan edən ictimai-siyasi prosesləri dəyərləndirmək baxımından da əhəmiyyətlidir. Çünki bu müzakirələr təkcə ümumi ədəbi prosesə və konkret ədiblərin irsinə təsir etməmiş, bütövlükdə cəmiyyətin ictimai şüurunu istiqamətləndirmişdir. Bu baxımdan Yazıçılar Birliyində gedən ədəbi müzakirələrin, xüsusilə də ədəbiyyatşünaslığın hər hansı bir konkret probleminə həsr olunan diskussiyaların təhlili və onların yazıçıların talelərinə təsirinin araşdırılması çağdaş ədəbiyyatşünaslığın əsas istiqamətlərindən biri olub, tədqiqat işinin aktuallığını üzə çıxaran əsas amillərdəndir.

XX əsrdə Yazıçılar Birliyindəki ədəbi müzakirələrin yaradıcılıq prosesləri və ədib talelərinə təsirinin öyrənilməsi istiqamətində mətbuatda, elmi dərgilərdə onlarla məqalə, oçerk tipli yazılar dərc olunsa da, fundamental tədqiqata rast gəlinmir. Rafael Hüseynovun böyük və fədakar azərbaycanlılar haqqında yazdığı "Millətin zərrəsi" və "Söz heykəli" kitabları, Teymur Əhmədovun tərtib etdiyi "XX əsr Azərbaycan yazıçıları" ensiklopediyası, Nazif Qəhrəmanlının "Azərbaycanda ədəbi cəmiyyətlər: 1920-1930-cu illər", Bədirxan Əhmədovun "XX yüzil Azərbaycan ədəbiyyatı: mərhələlər, istiqamətlər, problemlər", Flora Xəlilzadənin "Yazıçılar təşkilatının rəhbərləri", Şəlalə Məmmədovanın "Cənubi Qafqaz XX əsrin 20-30-cu illərində (Azərbaycan məsələləri)", Nizaməddin Şəmsizadənin "Azərbaycan Sovet ədəbiyyatşünaslığının təşəkkülü" və s. tədqiqat işləri XX əsrdə Yazıçılar Birliyindəki ədəbi müzakirələrin yaradıcılıq proseslərinə təsirinə bu və ya

digər şəkildə toxunan əsərlərdir[1]. Bunlardan əlavə, birliyin fəaliyyətinin müəyyən dövrləri ilə bağlı araşdırmalar, məqalə, esse, oçerk, xatirə və s. tipli yazılar da mövcuddur. Məsələn, Kamran Məmmədovun birliyin ilk üzvlərindən bəzilərinin həyatından bir çox maraqlı faktların yer aldığı "Azərbaycan yazıçılarının həyatından dəqiqələr" kitabı, Cəlal Qasımovun repressiya dövrü ilə bağlı "Ədəbi məhkəmələr", "Siyasi repressiya: həyatda və ədəbiyyatda" əsərləri, Gülxani Pənah və Salatın Əhmədlinin "Sənət, sənətkar və zaman: müasir ədəbi mühitə ümumi baxış" kitabı[2] və s. mənbələr diqqəti cəlb edir. Qeyd edilən və edilməyən bu tipli əsərlərdə Yazıçılar Birliyində gedən yaradıcılıq müzakirələrinin bəziləri təhlilə cəlb olunsa da, hələ ki, sözügedən problemlə əlaqədar müstəqil və sistemli tədqiqat işi yazılmamışdır.

XX əsr Azərbaycan Yazıçılar Birliyinin fəaliyyətinin tədqiqi və dəyərləndirilməsi istiqamətində mövcud müxtəlif araşdırmaların elmi mahiyyətini azaltmadan deyə bilərik ki, dissertasiya işi həmin zaman kəsimində bu təşkilatdakı ədəbi müzakirələrin yaradıcılıq prosesləri və ədib talelərinə təsiri ilə bağlı ilk sistemli fundamental tədqiqatdır.

---

[1] Hüseynov, R. Millətin zərrəsi / R.Hüseynov. - Bakı: Azərbaycan, - 2001. - 700 s.; Hüseynov, R. Söz heykəli / R.Hüseynov. - Bakı: Elm və təhsil, - 2013; XX əsr Azərbaycan yazıçıları: ensiklopedik məlumat kitabı / tərtibçi-müəllif: Əhmədov, T., - Bakı: Nurlan, - 2004. - 984 s.; Qəhrəmanlı, N. Azərbaycanda ədəbi cəmiyyətlər: 1920-1930-cu illər / N.Qəhrəmanlı. - Bakı: Elm, - 2006, - 124 s.; Əhmədov, B. XX yüzil Azərbaycan ədəbiyyatı: mərhələlər, istiqamətlər, problemlər / B.Əhmədov. - Bakı: Elm və təhsil, - 2015. - 550 s.; Xəlilzadə, F. Yazıçılar təşkilatının rəhbərləri / F.Xəlilzadə. - Bakı: Nurlan, - 2009. - 92 s.; Məmmədova, Ş. Cənubi Qafqaz XX əsrin 20-30-cu illərində (Azərbaycan məsələləri) / Ş.Məmmədova. - Bakı: RS poliqraf, - 2020. – 375 s.; Babayev, N. Ədəbi mübahisələr: Azərbaycan sovet ədəbiyyatşünaslığının təşəkkülü / N.Babayev. - Bakı: Yazıçı, - 1986. – 177 s.; Şəmsizadə, N. Seçilmiş əsərləri: [3 cilddə] / N.Şəmsizadə. - Bakı: Elm, - c. 1. - 2008. - 560 s.

[2] Azərbaycan yazıçılarının həyatından dəqiqələr / tərt. ed. Məmmədov, K.D. - Bakı: Gənclik, - 1971. - 184 s.; Qasımov, C. Ədəbi məhkəmələr, - Bakı: "Zərdabi LTD" MMC, - 2012. - 302 s.; Qasımov, C. Siyasi repressiya: həyatda və ədəbiyyatda, - Bakı: Elm və təhsil, - 2020. - 506 s.; Pənah, G. Sənət, sənətkar və zaman: müasir ədəbi mühitə ümumi baxış / G.Pənah, S.Əhmədli, - Bakı: UniPrint, - 2014, - 601 s.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın əsas obyekti XX əsrin 30-90-cı illərində Yazıçılar Birliyində gedən ədəbi müzakirələr, keçirilən tədbirlər, görüşlər, ədəbi diskussiyalar, həmin fikir mübadiləsi və mövqe qarşıdurmalarının oçağkı ədəbi nəşrlərdə, bütövlükdə dövri mətbuatda əksi, predmeti isə bu ədəbi mükalimələrin yaradıcılıq prosesləri və ədib talelərinə təsiridir.

Tədqiqat boyu Yazıçılar Birliyinin formalaşması və fəaliyyəti ilə bağlı arxiv materialları, dövrün ictimai-siyasi mənzərəsini əks etdirən qəzet və jurnallar, birliyin bəzi üzvlərinin xatirələri, bu ictimai təşkilatın fəaliyyətini təhlil edən tədqiqat işləri araşdırmaya cəlb olunmuşdur.

Ötən əsrin ideoloji-mədəni mühitində yaranmış bu ədəbi təşkilatın estetik fikirdə formalaşdırdığı yeni konsepsiyaları üzə çıxarmaq, eləcə də onların ədib talelərində oynadığı rolu göstərmək baxımından sadalanan materialların tədqiqata cəlb edilməsi qanunauyğundur. Belə ki, XX əsrin ideoloji-humanitar düşüncə tərzini özündə əks etdirən ədəbi əsərlərin dövrün sosial-siyasi mənzərəsini ehtiva edən elmi-publisistik məqalə və müvafiq tədqiqat işlərində yer alan ədəbi müzakirələr bazasında təhlili onlara çağdaş təfəkkür kontekstində qiymət verməkçün vacibdir.

Hər bir ədəbi əsər estetik obyektin intersubyektiv reallığı olduğu üçün yazıçı ilə oxucunu bu reallıqda birləşməyə zəmin yaratdığından ideoloji təşkilatdan müstəqil ədəbi birliyə qədər inkişaf yolu keçmiş Yazıçılar Birliyinin fəaliyyətini özündə əks etdirən bütün bu materialların təhlilə cəlb olunması obyektiv reallığın ortaya çıxarılması üçün xüsusi əhəmiyyət kəsb edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiyanın əsas məqsədi Yazıçılar Birliyinin yaranmasını şərtləndirən ictimai-siyasi şərait və ədəbi-mədəni mühitdən çıxış edərək onun fəaliyyəti dövründə irəli sürülən ədəbi-estetik konsepsiyaların özünəməxsusluqlarını, yaradacılıq prinsiplərini nəzərdən keçirmək, bu ictimai təşkilatın XX əsrin 30-cu illərindən başlayaraq sonunadək ədəbi prosesə və ədib talelərinə təsirini araşdırmaq, eyni zamanda çağdaş dövr ədəbiyyatşünaslığımıza ideya, məzmun və sənətkarlıq baxımından təsir qüvvəsini üzə çıxarmaqdır.

Dissertasiyada qeyd olunan elmi məqsədə çatmaq üçün qarşıya aşağıdakı vəzifələr qoyulmuşdur:

– Yazıçılar Birliyinin yaranmasına qədər və sonrakı dövrdə tənqidçilik fəaliyyətinin əsas xüsusiyyətlərini və mərhələlərini tədqiq etmək;

– Dövrün ədəbi-elmi mühiti çərçivəsində Yazıçılar Birliyində gedən ədəbi müzakirələrin estetik tərəflərini sistemləşdirmək;

– Ədəbi prosesdə Yazıçılar Birliyinin fəaliyyətinin yerini və mövqeyini, ədəbi müzakirələrdə irəli sürülən mülahizələrin orijinallığını aydınlaşdırmaq;

– Azərbaycan ədəbiyyatının aktual problemlərinin həllində Yazıçılar Birliyinin rolunu müəyyənləşdirmək;

– Yazıçılar Birliyinin fəaliyyətində ədəbi şəxsiyyətlər problemini araşdırmaq;

– Müxtəlif dövrlərdə Yazıçılar Birliyindəki ədəbi müzakirələrin ölkədəki ictimai-siyasi hadisələrə təsirini araşdırmaq və faktlara müraciətlə şərh etmək;

– XX əsrin sonlarına doğru Yazıçılar Birliyindəki ədəbi müzakirələrin bilavasitə milli hisslərə köklədiyini və ölkədəki sosial-siyasi problemlərin həllinə yönəlmiş olduğunu göstərmək.

**Tədqiqatın metodları.** Tədqiqat zamanı tarixi-müqayisəli və tarixi-tipoloji təhlil metodlarından istifadə olunmuş, hadisələrə yanaşarkən, dissertasiya işinin obyektini öyrənərkən, mövzu ilə əlaqədar toplanmış mataeriallları ümumiləşdirib, bilavasitə tədqiqatın predmetinə müvafiq faktları seçərkən, araşdırma ilə bağlı ilkin mənbələrə və sənədlərə istinad edərkən ədəbi-estetik konsepsiya ortaya qoyan bir qisim yerli və xarici müəlliflərin əsas elmi yaradıcılıq prinsipləri rəhbər tutulmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

1. Ədəbi-nəzəri fikrimizdə yaradıcılığın nəzəri-estetik cəhətlərinə diqqət yetirən, ədəbi prosesdə yeni faktlara obyektiv münasibət göstərən sənətkarların üzə çıxarılmasında Yazçılar Birliyinin rolu diqqətəlayiqdir;

2. Sosioloji və estetik tənqidin konsepsiyalarını özündə birləşdirən ədəbi müzakirələrin yazıçı talelərinə təsiri danılmazdır və faktlarla təsdiqini tapır;

3. XX əsrdə Yazıçılar Birliyinin fəaliyyət mərhələləri 30-cu illər, 41-45-ci illər, 46-50-ci illər, 60-cı illər, 70-80-ci illər və müstəqillik dövrünün ilk illəri olaraq bölünüb, qurumun ədəbi prosesə təsir dönəmləri kimi dövrləşdirilə bilər;

4. XX əsrdə Yazıçılar Birliyi Azərbaycan ədəbiyyatının nəzəri problemlərinin ədəbi tənqiddə işıqlandırılması istiqamətində mühüm rol oynayıb;

5. Yazıçılar Birliyinin fəaliyyətinin özünəməxsusluğu və orijinallığı Azərbaycan ədəbiyyatı tarixinin tədqiqinə həsr olunmuş materiallarda öz əksini tapır;

6. XX əsrdə Yazıçılar Birliyinin fəaliyyətinin müxtəlif dövrlərində bu ədəbi təşkilatın klassik irsə münasibəti fərqli olmuşdur.

**Tədqiqatın elmi yeniliyi.** Yazıçılar Birliyinin XX əsrdəki fəaliyyətinə, həmin qurumda ayrı-ayrı dövrlərdə cərəyan edən hadisələrə müxtəlif mövzulu araşdırmalarda toxunulsa da, burada aparılan ədəbi müzakirələrin ədib talelərinə, onların yaradıcılığına və ümumiyyətlə, ədəbi prosesə təsiri ayrıca tədqiqat predmeti seçilməmiş, birliyin fəaliyyəti bu istiqamətdən araşdırılmamışdır. Buna görə də dissertasiya işi XX əsrdə Yazıçılar Birliyindəki ədəbi müzakirələrin yaradıcılıq prosesləri və ədib talelərinə təsirinə həsr olunmuş müstəqillik dövrünün baxış bucağını ortaya qoyan ilk elmi-tədqiqat əsəridir.

İşin elmi yeniliyini aşağıdakı şəkildə müəyyənləşdirmək olar:

– Yazıçılar Birliyinin fəaliyyəti ilk dəfə olaraq sistemli şəkildə araşdırılır;

– Yazıçılar Birliyi sosioloji və estetik tənqidin qovşağında yetişən ədəbi təşkilat kimi nəzərdən keçirilir;

– Yazıçılar Birliyinin fəaliyyəti tarixilik və müasirliyin vəhdətində öyrənilir;

– Azərbaycan ədəbiyyat tarixinin bu və ya digər probleminin tədqiqində Yazıçılar Birliyinin xidmətləri araşdırılır;

– Yazıçılar Birliyində gedən ədəbi müzakirələrdə ədəbi tənqidçilər və bəzi sənətkarların Azərbaycan ədəbiyyatının nəzəri problemlərinə yanaşma tərzi tədqiqat obyekti seçilir;

– Yazıçılar Birliyinin ədəbi əlaqələr probleminə münasibəti qurumun fəaliyyət dövrləri üzrə təhlilə cəlb olunur.

Yazıçılar Birliyinin fəaliyyətinin konkret istiqamətinin müasir ədəbi prosesə təsirinin ilk dəfə dissertasiya işi həcmində tədqiqata cəlb olunub, təhlil edilməsi, yəni XX əsrin əvvəllərindən sonuna kimi AYB-də keçirilən iclaslarda, onun təşkil etdiyi qurultay, təqdimat mərasimi və görüşlərdə, bir sözlə, müxtəlif toplantılarda aparılan ədəbi müzakirələrin sistemli şəkildə öyrənilməsi də dissertasiya işinin elmi yeniliklərindəndir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiya işi XX əsr Azərbaycan ədəbi mühitinin ümumi mənzərəsini əks etdirən mənbə kimi mühüm əhəmiyyətə malikdir. Onun nəzəri və təcrübi müddəalarından respublikanın filologiya ixtisası üzrə təhsil verən ali məktəblərində dərs vəsaiti və ya metodik vəsait kimi istifadə oluna bilər. Dissertasiya işinin əsas elmi nəticələrindən gənc tənqidçilər elmi-praktik vəsait kimi də yararlana bilərlər.

**Tədqiqatın aprobasiyası və tətbiqi.** Tədqiqat işinin əsas müddəaları Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi elmi jurnallarda, o cümlədən beynəlxalq xülasələndirmə və indeksləşmə sistemlərinə daxil olan elmi nəşrlərdə, ölkədə və xaricdə keçirilən respublika və beynəlxalq əhəmiyyətli konfransların materiallarında işıq üzü görmüşdür.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilat.** Dissertasiya Azərbaycan Universitetininn Azərbaycan dili və ədəbiyyat kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın strukturu.** Dissertasiya işi Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən qoyulan tələblərə uyğun qaydada yazılmışdır.

Dissertasiya işi giriş, 3 fəsil (hər fəsil 3 paraqrafa bölünmüşdür), nəticə, istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. İşin ümumi həcmi 252.172 işarədir. Giriş 12.400, I fəsil 86.835, II fəsil 56.555, III fəsil 87.484, nəticə isə 8.898 işarədən ibarətdir.

## DİSSERTASİYA İŞİNİN ƏSAS MƏZMUNU

**Girişdə** mövzunun aktuallığı əsaslandırılmış, öyrənilmə səviyyəsi təhlil edilmiş, dissertasiya işinin metodoloji əsasları, elmi yeniliyi göstərilmiş, müdafiəyə çıxarılan əsas müddəalar, tədqiqatın nəzəri və təcrübi əhəmiyyəti müəyyənləşdirilmişdir.

Dissertasiya işinin **"XX əsrin 20-30-cu illərində yeni və köhnə ideoloji sistemlərin mübarizəsi"** adlı I fəsli 3 paraqrafdan ibarətdir. **"1920-30-cu illərin ideoloji sistem dəyişikliyi və ədəbi proses"** adlı 1-ci paraqrafda göstərilən zaman kəsimində Azərbaycanda gedən ideoloji sistem dəyişikliklərinin ədəbi prosesə təsirinin ümumi mənzərəsi təqdim olunur, 1917-ci ilin Oktyabr çevrilişindən sonra ədəbiyyat partiyalı elan olunduğundan sosializm quruculuğunda fəal iştirak etməyin yazıçıların yeganə vəzifəsinə çevrildiyinin milli məfkurəli sənətkarlar tərəfindən birmənalı qarşılanmadığı faktlarla nəzərə çatdırılır, 1920-30-cu illərdə Azərbaycanda mədəniyyət, ədəbiyyat və incəsənətin son dərəcə mürəkkəb ictimai-siyasi şəraitdə formalaşdığı bildirilir.

Ötən əsrin 20-ci illərində bolşevik Rusiyasında mövcud olmuş proletkult tipli təsisatların bütün klassik mədəniyyəti dağıtmağa və onun xarabazarlığı üzərində tamamilə yeni proletar mədəniyyətinin yaradılmasına qərar verdiyi göstərilir. Məhz bu ideologiyanın tribunası olaraq Bakıda "Əxbar", "Haqq", "Zəhmət", "Kommunist", "Zəhmət sədası", "Azərbaycan füqərası", "Hürriyyət", "Gənc işçi", rus dilində "Nabat", "Molot", "Proletari", "Raboçaya pravda" və s. kimi mətbuat orqanların fəaliyyəti, Cənubi Azərbaycanda yaranan demokratik ədəbiyyatın da əslində sovet ideologiyasına xidmət etməsi, "Oktyabr inqilabı"nın təsirinin Ş.M.Xiyabani, S.C.Pişəvəri, M.Ə.Möcüz, M.Eşqi və b.-nın yaradıcılığında özünü açıq-aydın büruzə verməsi, eyni zamanda Türkiyə kommunistlərinin "Yeni dünya", "Aydınlıq" jurnalları Bakıda, "Qızıl Şərq" kimi mətbu orqanların Moskvada çap olunması, türk kommunistlərin I Qurultayının 10 sentyabr 1920-ci ildə Bakıda çağırılması əsas alınaraq Azərbaycanda mövcud olan ədəbi prosesin – istər inqilabi-demokratik, istər proletar, istərsə də sovet ədəbiyyatının bilavasitə rus müəlliflərinin təsiri altında olması qərarına gəlinir.

Bildirilir ki, inqilabi ədəbiyyata partiya mətbuatındakı siyasi publisistikanın güclü təsiri var idi. N.Nərimanov, S.C.Pişəvəri, Ə.Qəmküsar öz yaradıcılıqlarında cümhuriyyət ədəbi məktəbinin nümayəndələrin əksinqilabçı, müsavatçı qismində tənqid edir, proletariatın mənafeyinə xidmət edirdilər. Bu illərin ədib və mühərrirlərinin yazıları "Hümmət", "Məşəl", "Kommunist", "Gənc işçi", "Füqəra sədası", "Yoldaş", "Hürriyyət", "Azərbaycan füqərası", "Bakı fəhlə, əsgər və matros şurasının əxbarı" kimi jurnal və qəzetlərin səhifələrində dərc olunurdu. 1917-20-ci illərdə dramaturgiya sahəsində də ideoloji təzyiq bariz şəkildə özünü göstərirdi. "Səd-Vəqqas" (1917), "Yezid ibn-Müaviyə" (1919) kimi əsərlərə qarşı təzyiqlər güclənir, yeni tipli hakimiyyətin mənafeyini gücləndirən realist əsərlər yazılırdı. C.Cabbarlının qələmə aldığı "Ədirnə fəthi", "Trablis müharibəsi", "Ulduz", "Bakı uğrunda döyüş" əsərləri ciddi tənqidə məruz qalır və ondan yeni tipli dram əsərlərinin yazılması tələb olunurdu. "Nəsrəddin şah" əsərinin bu illərdə meydana gəlməsi həmin dövrün mətbuatında mühüm hadisə hesab edilir, pyesdə demokratizm, xalq hərəkatı problemini ortaya qoyması və mütləqiyyətə qarşı çıxması təqdirəlayiq hal hesab olunurdu.

Nəzərə çatdırılır ki, cəmi bir il əvvəl azadlıq sevinci ilə coşan, müstəqil Azərbaycanın vətəndaşı olması ilə fəxr edən şairlər 1920-ci ildə sanki dağılmış dövlətlərinə ağı deyirdilər. Ə.Cavadın yaradıcılığı məhz buna görə tənqid atəşinə tutulurdu ("Kommunist" qəzeti, 7 may 1920-ci il). Bu illərdə rus proletariatının təsiri altında olan Bakı bolşeviklərinin fəaliyyəti Azərbaycanın digər bölgələrinə də yayılmış, Naxçıvan, Gəncə, Ağdam, Qazax, Şəmkir, Şamaxı və b. qəzalarda bolşevizmin güclü təzyiqi folklora da sirayət etmişdi. Xalq aşıqları da Azərbaycanda baş verən mürəkkəb siyasi hadisələri yaradıcılıqlarında əks etdirirdilər. Bolşevik siyasətini həyata keçirənlər öz yeni quruculuq işlərində də aşıqların xalq arasında olan nüfuzundan istifadə edirdilər. Belə ki, Aşıqların I Qurultayında (1928) R.Axundov aşıqların inqilabi nəğmələr oxumasının zəruriliyini nəzərə çatdırmış, Ü.Hacıbəyov isə xalqın əhvali-ruhiyyəsinə daha yaxın sənətin məhz aşıq yaradıcılığı olmasını vurğulamışdır. Bu illərdə Azərbaycan SSR XKS-nin birinci sədri

N.Nərimanovun "Bəzi yoldaşlara cavab" məqaləsində klassik irsi qoruması və onun yenidən oxunmasını aparıcı mövqeyə çıxarılması təqdirəlayiq idi.

1920-30-cu illərdə yerli kommunistlər klassik irsin yenidən tərcümə olunmasına önəm verir, klassik poeziyanın yeni sosialist görmə bucağından şərh və təqdim olunması istiqamətində xüsusi tədbirlər görürdülər. Bu dövrə ədəbi təşkilatların – Azərbaycan Zəhmətkeş Ədib və Şairlər İttifaqı, Şairlər İttifaqı, Ədəbiyyat Cəmiyyəti, Qızıl qələmlər Cəmiyyətinin yaranması, 1922-ci ildə "Kommunist" qəzetinin nəzdində Azərbaycan Zəhmətkeş Ədib və Şairlər İttifaqı tərəfindən buraxılan "Xalq ədəbiyyatı həyatdan doğar" əlavə səhifənin də davamlı olaraq dərc olunması yeni ədəbiyyatın təbliğinə xidmət edirdi.

1920-ci ilin əvvəllərində Azərbaycanda ideoloji dəyişikliyi ruh yüksəkliyi ilə qəbul edən yazıçılar bir sıra partiya qəzetlərində "cığırdaş" yazıçılara münasibətdə ehtiyatlı olmaq hökmünü irəli sürürdü.

1925-ci ildə daha çox gənclərdən ibarət bir qrup "Kommunist" qəzeti ətrafında birləşərək fəhlə-kəndli sinfinin ədəbiyyatını yaratmaq məqsədilə Gənc Qızıl Qələmlər Cəmiyyətini təşkil etmiş və partiyanın siyasəti nəticəsində Ədəbiyyat Cəmiyyəti ilə rəqabətə girişmişdi.

1920-ci illərin ədəbi tənqidində xüsusi fəallıq göstərmiş M.Quliyev, Ə.Nazim, H.Zeynallı, M.Ələkbərli, A.Musaxanlı, M.Rəfili, M.Arif, M.Hüseyn və b.-nın məqalələri məhz sovet ideologiyasının təbliğinə xidmət edirdi. 20-ci illərdə Azərbaycan sovet ədəbiyyatının ideya-estetik prinsiplərinin daha çox spesifik məzmun daşıdığı M.Quliyevin "Oktyabr və türk ədəbiyyatı" (1930), M.Hüseynin "Ədəbi döyüşlər" (1932), Ə.Nazimin "Proletar diktaturası dövründə Azərbaycan ədəbiyyatı" (1934) əsərlərində əsaslandırılırdı.

XX əsrin əvvəllərində ölkədə klassik irsə inkaredici münasibət, "Oxuma, tar", "Daloy Füzuli!" kimi futurist tezislər bir növ ədəbi meyillərə yenidən baxmaq tələbini irəli sürürdü. Rus futurizminin Azərbaycan ədədbiyyatına da, xüsusilə gənc şairlərin yaradıcılığına birbaşa təsiri əslində birmənalı qarşılanmamışdı.

M.Hüseynin "Bizdə futurizm cərəyanı" məqaləsində (1926) Ə.Nazimin "İnqilab" şeirinə tənqidi münasibət bildirilirdi. 1927-ci ildə N.Hikmətin "Maarif və mədəniyyət" jurnalında dərc olunan sərbəst vəzndə olan şeiri əsasında Ə.Nazimin yazdığı "Günəşi içirik... günəşlənirik" məqaləsində (1928) müasir şeirin sosiologiyasının özünəməxsus cəhətləri qeyd olunurdu. Ə.Abid isə "Heca vəzninin tarixi" məqaləsində (1928) onun türk xalqlarının tarixi dəyəri olmasını sübuta yetirirdi.

M.Rəfili Qərb estetikasının tərkib hissəsi adlandırdığı sərbəst şeirin formasını onun mövzusu və inqilabiliyi ilə əlaqələndirir, onu bütün köhnə ənənələrdən təcrid olunmuş bir hadisə hesab edir, M.Rzaquluzadə isə sərbəst nəzm termininin yeni poeziya təmayülünün ideya-estetik səciyyəsini ifadə etmədiyini yazırdı.

1920-ci ildən sonra başlanan bolşevik senzurası yaradıcılıqda sətiraltı mənaya, simvolizmə meyli gücləndirdi, C.Cabbarlı, H.Cavid, Ə.Cavad və b.-nın əsərlərində aydın təzahür edən bu hal 1937-ci ildən sonra kütləvi repressiyalar zamanı S.Vurğun kimi sənətkarların irsində normaya çevrildi.

**"XX əsrin əvvəllərində ictimai-siyasi dəyişikliklərin Azərbaycan mədəniyyətinə təsiri"** adlı 2-ci paraqrafda göstərilir ki, XX əsrin əvvəllərində Azərbaycan KP-nin əsas tələblərindən biri də ədəbiyyatımızda köhnə, partiyaya aid olmayan, onun prinsiplərini özündə əks etdirməyə nail olmayan hər hansı ədəbi-bədii nümunənin, janrın, obrazın və s. məhv edilməsi idi. "Partiyanın bədii ədəbiyyat sahəsində siyasəti haqqında" qərardan (1925) sonra ədəbiyyata nəzarət işi gücləndirilmiş, Qızıl qələmlər və daha sonra Azərbaycan Proletar Yazıçılar Cəmiyyətinin yaradılması ilə ədəbi prosesin təşkili işi ideoloji mərhələyə qalxmışdır.

Dövrün ədəbi tənqidçiləri "əski ədəbiyyat" məfhumunu "burjuaziya ruhunun tərcümanı" adlandırır, bu ədəbiyyatın "xəyalat və məcazatla dolu olduğunu" göstərirdilər.

Yazıçıların 25 oktyabr 1932-ci il tarixində M.Qorkinin başçılığı ilə keçirilən müşavirəsində yeni ədəbiyyatın metodu kimi təklif olunan "sosialist realizmi" termini İ.Stalin tərəfindən təsdiqləndi.

Ə.Əyyubinin, H.Bünyadovun, Ə.Əkbərin və b.-nın yazılarında ənənəyə qərəzli münasibət bildirilir, dövrün tənqidçilərinin klassik ədəbiyyata münasibəti Ə.Nazimin "Ədəbiyyatmı? Xalqmı?" məqaləsində daha aydın ifadə edilirdi. O, köhnə ədəbiyyatın xalqa deyil, kiçik bir sinfə xidmət etdiyini, yalnız hakim siniflərin ruhunu oxşadığını, klassik ədəbiyyatla xalq arasında yaxınlıq olmadığını əsaslandırmağa çalışırdı. Buna görə də əvvəllər real həyatdan yazan, yazıçı mövqeyini heç bir hakim ideyaya, direktivə tabe etdirməyən ədiblər tələb olunan və şüarlardan yaranan ideallardan yazmağa başladılar. Təcrübəli yazıçıların bir qismi yaradıcılıq böhranından çıxmaq istəmədi. C.Məmmədquluzadənin "Proletar şairi", Y.V.Çəmənzəminlinin "Vasvası", S.S.Axundovun "Gənc maşinistka və qoca yazıçı", A.Şaiqin "Hitlerin yuxusu" əsərləri və s. isə əvvəl yazdıqlarının bədii dəyərindən xeyli aşağı oldu.

M.Quliyevin köhnəliklə bağlı milli musiqi alətlərinin heç bir gələcəyinin olmadığını söyləməsindən sonra APYC-nin II plenumunda (1932) ən çox tənqid atəşinə tutulan M.Müşfiqin "Oxu, tar" şeiri oldu (S.Rüstəmin, M.Rahimin "Tar" şeirlərində isə bu musiqi alətinə mənfi münasibət bildirilirdi).

"Gənc işçi" qəzetinin redaktoru A.Rəsulzadə klassik irsə münasibət məsələsini "ikinci dərəcəli mövzu" hesab edir, M.Quliyev kimi ziyalılar klassik irsi "orta əsr dərəbəylik mədəniyyəti" kimi damğalayıb, onun mühüm bir parçası olan ədəbiyyatdakı güclü humanizmi, bəşəri yetkinliyi görməzdən gəlirdilər. Kult mədəniyyətinin köhnə irsə təzyiq dalğası digər məqamda klassik janrlara münasibətdə də özünü göstərirdi. Klassik üslubda yazılan əsərlərin mətbuata gedən yoluna da sədd çəkilmişdi. Bədii ədəbiyyata sinfilik prinsipi ilə yanaşıldığından bu illərin tənqidçiləri Nizamini "sufi", Füzulini "idealist" sənətkar adlandıraraq rədd edir, M.F.Axundovda "burjua-liberalizmi" axtarır, N.Vəzirovun yaradıcılığını "mülkədar və feodalizm həyatının çürüklüyünü" ifadə edən bir yaradıcılıq hesab edirdilər.

Türk xalqarının bir çox taleyüklü problemlərinin həlli yollarının müzakirə olunduğu I Türkoloji Qurultayda (Bakı, 1926), gündəlikdə olan məsələlərdən biri də əlifba ilə bağlı idi. Nəticədə

əlifba dəyişdirildi, öncə latın, sonra kiril qrafikasına keçildi, bu isə əski yazılı abidələrimizi, milli-mənəvi dəyərlərimizi unutdurma cəhdi idi. 1920-30-cu illərdə dövrün məşhur şairlərindən biri hesab edilən A.Faruq latın qrafikasının kiril əlifbası ilə əvəz olunmasını qətiyyətlə pisləyib, bununla bağlı Mərkəzi Komitəyə etiraz məktubu yazdığı üçün dərhal AYİ-dən uzaqlaşdırıldı, bütün kitabları satışdan çıxarıldı, əsərlərinin çap olunmasına qadağa qoyuldu.

1923-cü ildə "Maarif və mədəniyyət" jurnalı dini dəyərlərdən dünyəvi, qeyd-şərtsiz və ümumi dəyərlərdən şərti və ixtiyari dəyərlərə keçidi səciyyələndirən instansiyalardan biri kimi fəaliyyətə başladı. 1929-cu ildə adının dəyişdirilərək "İnqilab və mədəniyyət" olmasından etibarən Azərbaycan Proletar Yazıçılar Cəmiyyətinin orqanına çevrildi, onun səhifələrində bir çox ədəbi-tənqidi, ədəbiyyatşünaslığın bu və ya digər problemləri ilə bağlı məqalələr dərc olundu.

**"Azərbaycan yazıçılarını vahid təşkilatda birləşdirməyə aparan yol"** adlı 3-cü paraqrafda bildirilir ki, XX əsrin əvvəllərində parçalanmış türk xalqının bir ittifaqda birləşməsi cəhdlərinin mövcudluğu müxtəlif təyinatlı cəmiyyətlərin yaranmasına rəvac verib. Bu baxımdan "Türk ocağı" adlı cəmiyyətin fəaliyyəti xüsusilə diqqəti cəlb edir. Bu cəmiyyətin nəzdində "Yaşıl qələmlər" adlı ədəbi dərnək də fəaliyyət göstərirdi ki, onun üzvləri 17 mart 1920-ci ildə keçirilən son iclasında yeni "Türk ədib və şairlər ittifaqı" dərnəynin təsis edilməsini xəbər verirlər. 1923-cü ildə bəzi yazıçılar birləşərək Azərbaycan Respublikasının yazıçı və şairlərinə xitabən yeni dərnəyin yaradılması haqqında bəyannamə çap edir, hətta onun məramnaməsinin hazırlandığını və təsdiq edildiyini bildirirlər. Bu ildən Türk ədib və şairlər ittifaqı "İldırım" adı ilə fəaliyyət göstərməyə başlayır, ilk iclasında isə idarə heyətinin sədri S.S.Axundov, müavini H.Zeynallı, katibi M.Sidqi seçilir. "Kommunist" qəzetində (31 avqust 1923-cü il) bu haqda məlumat dərc olunaraq geniş ictimaiyyətə çatdırılır.

Bu cəmiyyətin məramnaməsinin partiyanın bəzi prinsipləri ilə uzlaşmaması, üzvlərinin ədəbi-bədii mühitdə ideoloji təbliğatın aparılmasında passsivliyi hakimiyyətə əl vermirdi. 1923-cü ildə "Kommunist" qəzetində dərc olunan "Çağırış" başlıqlı elanda gənc

ədəbiyyat həvəskarları dərnək yaratmağa dəvət edilirdi. 1924-cü ildə Azərbaycan Ədəbiyyatı Cəmiyyəti yaranır, lakin bu cəmiyyətin üzvlərinin çoxunun yeni ədəbiyyatın yaranmasında göstərdikləri səylərdə “zəiflik” olduğundan dərnək tezliklə ləğv olunur. 1925-ci ildə isə yeni “Ədəbiyyat cəmiyyəti” meydana gəlir. Bu cəmiyyətə rəhbərliyi B.A.Talıblı öz üzərinə götürür, gənc proletar şair və ədiblərin sayəsində proletar ədəbiyyatını yaratmaq uğrunda mübarizə aparır. Klassikliyə daha çox meyil etdiyi, yeniliyə can atmadığı, gənc ədəbi qüvvələrlə partiyanın qanunlarına uyğun lazımi iş apara bilmədiyi üçün tənqid olunan Ədəbiyyat Cəmiyyəti ləğv olunaraq (30 noyabr 1926-cı il) Gənc qızıl qələmlərin tərkibinə daxil edilir.

M.Ələkbərli SSRİ Yazıçılarının I Qurultayında (1934) etdiyi “Azərbaycan ədəbiyyatı” mövzusundakı məruzəsində Qızıl qələmlərin fəaliyyəti haqqında məlumat verərkən onun proletar yazıçıların cəmiyyəti kimi 1926-cı ildə Mərkəzi Komitənin mətbu orqanı olan “Kommunist” qəzeti nəzdində təşkil edildiyini, S.Rüstəmin isə ən fəal nümayəmdəsi olduğunu qeyd etmişdi.

1927-ci ildən “Maarif və mədəniyyət” jurnalı “Qızıl qələmlər”in xüsusi mətbu orqanı olaraq fəaliyyət göstərməyə başlayır.

1928-ci ildə Azərbaycan Proletar Yazıçılarının I Qurultayının keçirilməsi qərara alınır. Qurultaydan dərhal sonra Proletar Yazıçılar Cəmiyyəti özünün rəsmi fəaliyyəti üçün ilk addımlar atır. Onun əsas məramı isə yaşlı və gənc ədibləri bir araya gətirmək idi.

Azərbaycan Proletar Yazıçılarının II Qurultayında (1929) yazıçıların üzərinə düşən vəzifələr müzakirə edilir və beşillik plan təsdiq edilir. Ədəbiyyatda yeni yaranmış, xüsusilə Qərbdən gələn konsepsiyalar və istiqamətlər “zərərli” hesab edilir, onlarla mübarizə üsulları müzakirə olunur.

Ümumittifaq KP MK-nın qəbul etdiyi “Ədəbi-bədii təşkilatların yenidən qurulması haqqında” qərarında (23 aprel, 1932-ci il) SSRİ-nin tərkibində olan bütün respublikalarda Proletar Yazıçılar Cəmiyyəti ləğv edilir. Azərbaycanın mərkəzi hakimiyyətinin qərarına əsasən, ləğv olunan qurumun əvəzinə,

Azərbaycan Sovet Yazıçıları İttifaqının Təşkilat Komitəsi fəaliyyətə başlayır (5 mart, 1932-ci il).

Paraqrafda belə qənaətə gəlinir ki, sosializm uğrunda inqilabi çevrilişdən sonra cəmiyyəti "kommunizm" quruculuğuna aparmaq kimi saxta ideologiyanın təsiri altında yaranan AYİ bir layihə olaraq Azərbaycan xalqının identikliyi yox etmək məqsədilə dağıdıcı struktur kimi fəaliyyətə başlasa da, son nəticə etibarilə Azərbaycan mentalitetinin qorunmasında, azərbaycançılıq ideologiyasının formalaşmasında müstəsna rol oynayıb.

Dissertasiya işinin **"Siyasi repressiyalar kontekstində Yazıçılar Birliyindəki ədəbi müzakirələr və 1950-60-cı illərdə ədəbi siyasət"** adlı II fəsli 3 paraqrafdan ibarətdir.

**"XX əsrin 30-cu illərinin repressiya dalğası və Yazıçılar Birliyində gedən ədəbi müzakirələr"** adlı 1-ci paraqrafda bildirilir ki, on minlərlə insanın, əsasən də cəmiyyətin ziyalı təbəqəsinin həbslərə, sürgünlərə, edamlara məruz qaldığı repressiya dövrü ölkədə xeyli sayda azad düşüncəli, xüsusilə də yaradıcı insanların məhvinə səbəb oldu. Bu illərdə partiyanın sovet xalqı adından irəli sürdüyü hər hansı bir tələbi yerinə yetirməyən sənətkarları son dərəcədə ağır cəza tədbirləri gözləyirdi. Ən yaxşı halda əsərləri yasaq edilir, çapına qadağa qoyulur, etiraz səsini ucaldan müəlliflər isə həbs olunur, sürgün edilir və edam cəzasına məhkum edilirdi.

1937-ci ilə qədər də Azərbaycanda Yazıçılar Birliyinin rolunu ifa edən bir çox təşkilat və cəmiyyətlərdə ədəbi məhkəmələr təşkil olunurdu. Proletkultçuluq sənətin bütün növlərinə, o cümlədən ədəbi tənqidə də sirayət etmişdi, 20-ci illərdə başlayan mübahisələr 30-cu illərdə daha da kəskinləşərək ədəbi siyasi ittihamlara çevrilmişdi.

"Gənc işçi", "Ədəbiyyat qəzeti" kimi mətbuat orqanların səhifələrində yeni dövrün ideoloji təbliğatına qoşula bilməyən sənətkarların bəziləri açıq şəkildə xalq düşmənləri kimi qələmə verilirdi. 1937-ci ilin əvvəllərində Ə.Əyyubinin "Düşmən ağzına yumruq" məqaləsində Ə.Cavadla yanaşı, M.Müşfiq, A.İldırım da ciddi tənqid atəşinə tutulur, açıq-aşkar təhdid olunurdu, həmin ilin mart ayınnda Yazıçılar İttifaqında keçirilmiş plenumda isə azad fikirli yazıçı və şairlər artıq "ifşa" edilir, M.Rahimin

“Kontrrevolyusioner, kontrabandçı, oğru” adlı qərəzli məqaləsilə M.Müşfiq edama yola salınırdı.

Yazıçılar Birliyində keçirilən yığıncaqlar, tədbirlər, iclaslar, dərc olunan tənqidi yazılar sayəsində mükəmməl elmi dil formalaşdı. Müasir ədəbi prosesə münasibətdə çox zaman haqsızlığa yol vermək məcburiyyətində olan ədəbiyyatşünaslarımızın ən böyük uğuru ədəbiyyat tariximizi öyrənmək oldu.

**“Sov.İKP-nin XX Qurultayından sonra Yazıçılar Birliyindəki müzakirələrdə şəxsiyyətə pərəstişin tənqidi və repressiyaya məruz qalmış ədiblərimizin mənəvi bəraəti”** adlı 2-ci paraqrafda qeyd edilir ki, İ.Stalinin ölümü və hakimiyyət dəyişikliyi ölkədə uzun sürən repressiya, şiddət, qorxu içində yaşamaqdan bezib artıq bütün sədləri qırmağa hazır olan insanları bir qədər sakitləşdirməyə sövq etdi. Sov. İKP-nin XX Qurultayının əsas qərarlarından biri də “Şəxsiyyətə pərəstiş” dövründə repressiyaya uğrayan “xalq düşmənlərinə” bəraət verilməsi oldu.

1950-60-cı illərdə ölkədə yeni sosial-ideoloji qərarlar tətbiq olundu. Repressiyanın qəti şəkildə pisləməsi, bunun sovet vətəndaşlığına vurulan zərbə olaraq dəyərləndirməsi ittifaq respublikalarında nisbi sərbəstliyə meyil yaratdı, mədəniyyətdə, o cümlədən ədəbiyyatda yeni dəyər prinsiplərinin, istiqamətlərin meydana gəlməsinə yol açdı.

Bu illərdə ədiblərimizin bir qismi hələ də sosialist realizminin əvvəlki prinsiplərinə müvafiq əsərlər yazsa da, onların yaradıcılığında artıq vulqar sosialogizmə çox nadir hallarda təsadüf olunurdu. Bu istiqamətdə fəaliyyət göstərən yazıçıların əsərlərində sülh, əmək, xalqlar dosluğu kimi stereotiplərə əsaslanan mövzular diqqəti cəlb edirdi.

“Ədəbiyyat qəzeti”nin 13 yanvar 1949-cu il tarixli sayında dərc olunan “Ədəbi tənqidin fəaliyyətini qüvvətləndirməli” adlı baş məqalədə sovet tənqidçilərini partiyanın tələblərinin yerinə yetirilməsində fəallıq göstəməsinə çağırış var idi. Bu illərdə partiyaya xidmət etməyən hər hansı bir əsər ciddi tənqidə məruz qalmalı idi. “Pravda” qəzetinin 28 yanvar 1949-cu il tarixli sayında ayrıca redaksiya məqaləsi çap olunduqdan sonra ASYİ-də tənqid

müşavirəsi çağırıldı. S.Vurğunun “Tənqid konfransına məktubu”nda, M.İbrahimovun “Ədəbi tənqidin vəziyyəti və vəzifələri haqqında” məruzələrində yenə də tarixilik, sinfilik və partiyalılıq sovet ədəbiyyatşünaslığının ən mühüm prinsipləri kimi dəyərləndirilirdi.

Bu dövrdə Azərbaycan ədəbiyyatında konfliktsizlik nəzəriyyəsi dəbdə idi. Müharibənin dəhşətləri haqqında yazılan bir neçə əsər istisna olmaqla, ərsəyə gətirilən əsərlər əsasən istehsalat mövzusuna həsr olunurdu.

Sovet Yazıçılarının II Qurultayında S.Vurğunun dövrü üçün çox cəsarətli addımı – romantizm prinsiplərinin ədəbiyyata gətirilməsi kimi təklifi amansız tənqid atəşinə tutuldu. Onun “Sosialist realizmi və inqilabi romantika uğrunda” məqaləsi ideal qəhrəman, klassik irsə münasibət kimi problemlər ətrafında müzakirələrə yol açdı. Partiyanın qərarlarına müvafiq olaraq yazıçılar müharibə mövzusuna üstünlük verirdilər. Yazıçılar İttifaqında gedən müzakirələrin bir qismi də bu mövzuda əsərlərin tənqidinə yönəlmişdi.

Xalqın taleyi ilə bağlı mövzuda söz deməyi hər bir sənətkar özünə borc bilirdi. M.S.Ordubadi, S.Rəhimov, M.Hüseyn, Ə.Məmmədxanlı, Mir Cəlal, Ə.Vəliyev, İ.Əfəndiyev, Əbülhəsən, S.Vəliyev, H.Abbaszadə və b. kimi nasirlər qəhrəman azərbaycanlı döyüşçüsünün parlaq obrazını yaratmağa üstünlük verirdilər.

**“1950-60-cı illərin tənqidi Yazıçılar Birliyindəki ədəbi siyasətin ifadəsi kimi”** adlı 3-cü paraqrafda bildirilir ki, AYİ-nin III Qurultayında (4-5 dekabr 1958-ci il) Mir Cəlal “Azərbaycan sovet nəsri dörd il ərzində” adlı məruzə etdi. Görkəmli yazıçı-alim çıxışında İ.Stalinin ölümündən sonra keçən illər ərzində çap olunan əsərlərin ideya-məzmun xüsusiyyətlərindən söz açıb yeni istiqamətdə nəsr nümunələrinin yaranma zərurətindən danışdı və dövrün fərqli tələblər meydana gətirdiyini vurğuladı.

Səslənən məruzələrdə M.Müştaqın “Aydın yollarda” povesti çiy, Z.Xəlilin “Yeni şeirlər”i ideyaca zərərli bədii yaradıcılıq nümunəsi kimi təqdim olunurdusa da, C.Xəndanın “Mikayıl Müşfiq” oçerki sosialist realizminin nailiyyəti kimi qiymətləndirildi.

Bu qurultayda sosialist realizmdən kənarlaşma qətiyyən müşahidə olunmasa da, İ.Stalin despotizminin bir qədər yumşalması, repressiya qurbanlarının bəraət alması incəsənət nümayəndələrinə sovet ideologiyasına uyğun insanın tərbiyə olunması problemindən canlı insan obrazının yaradılmasına keçid imkanı yaratdı.

Görkəmli rus yazıçısı İlya Erenburqun "Ottepel" povestinin adından götürülmüş "yumşalma" dövrü fərqli xüsusiyyətləri ilə diqqəti cəlb edir. Məsələn, tarixi mövzuda yazılan əsərlərdə əvvəlki dövrlərdə mövcud olan tarixi proseslərin təcəssümünə deyil, insan içində baş verən təbəddülatların, iztirabların təsvirinə daha çox yer verilirdi.

1960-cı illərdən başlayaraq yumşalmağa doğru gedən qlobal ictimai-siyasi atmosfer və SSRİ-də ideoloji cərəyanın zəifləməsi nəticəsində sənət sahəsində fəaliyyət göstərən gənc istedadlar (60-cılar nəslinin görkəmli nümayəndələri İ.Hüseynov, S.Əhmədli, M.Araz, Anar, Elçin, S.Rüstəmxanlı, Ə.Salahzadə, F.Kərimzadə və b.) mövcud siyasi sistemi tənqid edən əsərlər yaratmağa başladılar.

AYİ-də 60-cı illərin ədəbi müzakirələrini məşğul edən ən ümdə məsələlərdən biri qəhrəman və mühit problemi idi. Y.Səmədoğlunun mistisizmə köklənən fəlsəfi nəsri də ədəbi müzakirələrdə tədqiq obyektinə çevrilmişdi. Azərbaycan ədəbiyyat tarixində yenilik təşkil edən bu tipli mövzular, həmçinin AYİ-nin "Natəvan" klubunda keçirilən tədbirlərdə, yığıncaqlarda geniş vüsət tapmışdı.

AYİ-də gedən müzakirələrdə ana dilinin əhəmiyyəti də vurğulanır, gənc şairlərə yad dillərin təsirindən uzaqlaşmağı aşılayan şeirlər yazmaq tövsiyə olunurdu. X.Rzanın "Laylam mənim, nərəm mənim" şeiri bu dövrün məhsulu idi.

Dissertasiya işinin **"XX əsrin son onillikləri və müstəqilliyin ilk onilliyində Azərbaycan Yazıçılar Birliyində ədəbi müzakirələr: yeni zamanın yeni şərtləri"** adlı III fəsli 3 paraqrafdan ibarətdir.

**"XX əsrin son onilliklərində və müstəqilliyin ilk onilliyində Yazıçılar Birliyindəki müzakirələr və ədəbi hadisələrə fərqli baxışlar"** adlı 1-ci paraqrafda bildirilir ki, XX

əsrin 60-cı illərində Azərbaycan ədəbiyyatındakı fəallıq kəsb edən bir çox üslubi meyillərin, ədəbi-bədii tendensiyaların, poetik sistemin 70 və 80-ci illərdə davamı və inkişafı müşahidə olunurdu.

Sov. İKP MK-nın "Ədəbi-bədii tənqid haqqında" qərarından (1972) sonra Yazıçılar İttifaqında ədəbi prosesin inkişaf istiqamətini müəyyənləşdirən xeyli mübahisə və müzakirələr aparılan iclaslar keçirildi.

M.Süleymanlının sovet cəmiyyətini ifşa edən, hakim sistemin törətdiyi faciələri özündə əks etdirən "Dəyirman" povesti (1979) çap olunar-olunmaz müəllifini "antixalq", "antiazərbaycanlı" kimi ittihamla dolu ifadələrlə tənqid etdilər. 1980-ci ildə Yazıçılar İttifaqının "Natəvan" klubunda gedən müzakirələrdə fəal həyat mövqeyinin əsərdə öz əksini tapmadığı bildirilirdi. Bununla yanaşı, Anar, Elçin, İ.Şıxlı, İ.Əfəndiyev əsəri müdafiə edirdilər.

Azərbaycan SSR KP MK-nın I katibi Heydər Əliyevin müdaxiləsindən sonra povestə münasibət dərhal müsbət istiqamətə dəyişdi. Ş.Hüseynovun "Fəal həyat mövqeyi və sənətkar refleksi" məqaləsi əsərə artıq yeni-obyektiv münasibəti ortaya qoydu.

70-ci illərin sonu 80-ci illərdə Yazıçılar İttifaqında aparılmış Anarın, Elçinin yaradıcılığındakı esse janrı, İ.Hüseynovun, Ç.Hüseynovun assosiativ üslubu, İ.Əfəndiyevin təhkiyəsində lirik-psixoloji başlanğıcla realist-obyektiv yanaşmanın vəhdəti, yeni epik axtarışlarda fərqli təmayüllərin iştirakı ilə bağlı müzakirələr ədəbi prosesin gedişində mühüm rol oynadı.

80-ci illərin sonlarında "Azərbaycan" jurnalında çap olunan məqalələrdə Azərbaycan sovet ədəbiyyatının inkişaf yollarını yeni ədəbi konsepsiyalar tələbləri səviyyəsində bir daha nəzərdən keçirilməsi fikri irəli sürüldü.

Sovet imperiyasının süqutu ərəfəsində Yazıçılar İttifaqı da xalqımızın milli müstəqilliyə qovuşma uğrunda mübarizəsindən kənarda qalmadı.

1991-ci ildə Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra bu təşkilat Azərbaycan Yazıçılar Birliyi adlandırıldı. Xalqın ağır problemlərinin də həllini imkan daxilində öz üzərinə götürməyə cəhd edən bu birlik, siyasi məsələlərin də mərkəzində dayanır, fəallıq nümayiş etdirirdi. 1990-ci illərin "20 Yanvar" faciəsi,

“Xocalı soyqırımı” və s. ilə bağlı xəbərləri dünyaya ilk car çəkən ictimai təşkilat da AYB oldu.

Müstəqilliyin ilk illərində “Natəvan” klubunda yubileylər, təqdimatlar, yaradıcılıq hesabatları, dəyirmi masalar, ölkənin ictimai-siyasi durumunu səciyyələndirən mövzuların ədəbi mühitdə təcəssüm problemləri ilə bağlı iclaslar müntəzəm olaraq keçirilirdi.

**“Ümummilli lider Heydər Əliyev və Yazıçılar Birliyi”** adlı 2-ci paraqrafda göstərilir ki, XX əsrin 60-cı illərinin siyasi mülayimləşməsi Azərbaycanda yetmişinci illərə kimi davam etdi və ədəbiyyat sahəsində sinfi münasibətdən milli mövqeyə keçməsi zəminində müşahidə olundu. 14 iyul 1969-cu il tarixli plenumda Heydər Əliyevin Azərbaycan KP MK-nın birinci katibi vəzifəsinə seçilməsi ilə ölkədə bütün sferalarda yeni istiqamət müəyyən olundu, fərqli həyat canlandı.

H.Əliyev ölkədə təşkil olunan milli-mədəni tədbirlərin çoxunda, o cümlədən Yazıçılar İttifaqının müşavirələrində iştirak edir, açıq şəkildə milli-mənəvi dəyərlərimizin qorunması probleminə rəğbətini bildirir və bu istiqamətdə işlərin davamlı olmasını tövsiyə edirdi.

1971-ci ildən AYİ-nin bütün qurultaylarında mütəmadi iştirak edən H.Əliyev VII qurultaydakı (12-13 iyun 1981-ci il) çıxışında yazıçı mövqeyinin xalqın həyatı ilə bağlı olduğunu vurğulayaraq ittifaq üzvləri qarşısında konkret vəzifələr qoymuşdu.

Ulu öndərin klassik ədəbi irsimizə qayğıkeş münasibəti Azərbaycan şair və yazıçılarının xatirəsinin əbədiləşdirilməsi, yubileylərinin qeyd olunması, ev və xatirə muzeylərinin yaradılması, heykəllərinin, büstlərinin ucaldılması kimi mühüm işlərə bilavasitə özünün nəzarət etməsindən də aydın sezilirdi. 1979-cu ildə Azərbaycan KP MK-nın “Böyük şair və mütəfəkkir Nizami Gəncəvinin ədəbi irsinin öyrənilməsini, nəşrini və təbliğini yaxşılaşdırmaq tədbirləri haqqında” qərarı, 1982-ci ildə Şuşada M.P.Vaqif məqbərəsinin açılışı, X.Natəvanın büstünün ucaldılması, H.Cavid nəşinin uzaq Sibirdən Naxçıvana gətirilməsi, C.Cabbarlının Bakıda möhtəşəm abidəsinin ucaldılması və s. sovet dövründə, 1994-cü ildə M.Füzulinin 500 illik yubileyinin dövlət səviyyəsində qeyd olunması, 1995-ci ildə Y.Səmədoğlunun anadan

olmasının 60 illiyinin, 1997-ci ildə ən dəyərli milli-mədəni abidəmiz olan "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyinin keçirilməsi ilə bağlı qərarları və s. müstəqillik illərində onun klassik irsə qayğısının bariz nümunələridir.

**"Azərbaycan Yazıçılar Birliyinin fəaliyyəti və müzakirə gündəliyindəki Qarabağ mövzusu"** adlı 3-cü paraqrafda bildirilir ki, 1987-ci ildə A.Aqanbekyanın Parisdə əzəli Azərbaycan torpağı Qarabağın Ermənistana verilməsi bəyənatına ilk etiraz məktubunu AYİ-nin adından Anar SSRİ-nin o zamankı dövlət başçısı M.Qorbaçova göndərdi. Bundan sonra Yazıçılar İttifaqının sədri və üzvləri aramsız olaraq keçirilən görüşlərdə, göndərilən məktublarda, meydandakı çıxışlarında Qarabağ probleminin həll olunması üçün mübarizə apardılar.

80-ci illərin sonu-90-cı illərin əvvəllərində Ermənistanın Azərbaycanın müstəqilliyinə təcavüzü, ərazi bütövlüyünü pozmağa yönələn mənfur planları, bu qəsbkar siyasətin həyata keçirilməsinin doğurduğu faciələr, müsibətlər, xalqımızın erməni işğalçılarına və onların havadarlarına qarşı mübarizəsi yeni Azərbaycan ədəbiyyatının aparıcı mövzularına çevrildi.

Ümummilli lider H.Əliyev yazıçıların X qurultayında ədəbiyyatın təxirəsalınmaz rolundan danışmış, ədiblərimizi Azərbaycanın ərazi bütövlüyünün bərpası, işgal edilmiş torpaqlarımızın azad olunması, Azərbaycanın qüdrətli ordusunun yaradılması, vətəndaşların səfərbərliyi, Azərbaycan gənclərinin hərbi-vətənpərvərlik ruhunda tərbiyəsinin möhkəmləndirilməsi uğrunda çalışmağa çağırmışdı.

90-cı illərdə yaradılan əsərlərin çoxunda yüksək ideallar – düşmən qarşısında əyilməzlik, haqq işi uğrunda mübarizlik, vətənpərvərlik duyğuları kifayət qədər təqdir və təbliğ edilmir, qələbəyə inam hissi alovlandırılmır, hətta bədbin əhvali-ruhiyyəyə qapılmış bəzi müəlliflər öz əsərlərində inilti, sızıltı, göynərti notlarına daha çox üstünlük verməklə müvəqqəti məğlub taleyini yaşamaq məcburiyyətində qalmış xalqımıza pessimizmi aşılayırdılar.

Ulu öndər H.Əliyevin Azərbaycanda yenidən ali siyasi hakimiyyətə gəlişindən sonra isə şair və yazıçılarımızın əksərən

Yazıçılar Birliyində müzakirə və təqdim edilən əsərlərində artıq qələbəyə inam ifadə olunur, müharibə çağırışları edilir, Qabilin "Ümid sənədir ancaq, Azərbaycan əsgəri!" nidası səslənirdi.

Dissertasiya işinin **"Nəticə"** hissəsində əsas müddəalar qruplaşdırılmış, tədqiqatın yekunları bəndlər şəklində göstərilmiş, öyrənilən hadisələrin müasir dövrlə əlaqəsi müəyyənləşdirilmiş, tövsiyə və təkliflər verilmişdir.

Tədqiqat işində XX əsrdə Azərbaycan Yazıçılar Birliyindəki ədəbi müzakirələrin ölkəmizdə ədəbi prosesə və ədib talelərinə təsiri haqqında elmi-nəzəri müddəaları aşağıdakı şəkildə ümumiləşdirilib:

– Yazıçılar Birliyinin və onun təsisçisi olduğu ədəbi orqanların fəaliyyətinin təhlili zamanı belə qənaətə gəlirik ki, ötən əsrin 20-ci illərində yeni cəmiyyətin sürətlə irəliləməsi nəticəsində sosialist düşüncəsi ölkədə xalq həyatına, ədəbi-bədii yaradıcılığın bütün sahələrinə güclü şəkildə nüfuz etmiş, 1920-32-ci illərdə marksist-leninist ideologiyası təsiri altında köhnə ədəbi irsə qarşı vulqar, nihilist münasibət intişar tapmışdır;

– XX əsrin 20-30-cu illərinin bədii ədəbiyyat nümunələrinin ümumi mənzərəsindən aydın olur ki, 1920-ci ildən sonra başlanan bolşevik senzurası, yasaqlar, siyasi baxışlarına görə təqiblər müəlliflərimizi əksər hallarda yaradıcılıqlarında sətiraltı mənaya müraciət etməsinə məcbur etmiş, ədəbiyyatımızda simvolizmə meyli gücləndirmişdir;

– Repressiya dövründə ədəbi tənqid tərəfindən subyektivizmə məruz qalan ədəbi əsərlərin təşkilatın "Natəvan" klubunda yenidən müzakirəyə qoyulması, onların dəyərinin geri qaytarılması AYİ-nin repressiyaya uğramış yazıçıların mənəvi bəraət alması proseslərində müstəsna xidmətlərindən biridir;

– II Dünya Müharibəsindən sonra, XX əsrin 50-ci illərində, Azərbaycan sovet ədəbiyyatında konfliktsizlik nəzəriyyəsinin hakim kəsildiyi dövrdə ədəbiyyatımızn düzgün yönəldilməsi istiqamətində Yazıçılar Birliyinin fəaliyyətinin araşdırılması ədəbi tənqid irsimizin mühüm əhəmiyyətini ortaya qoyur;

– Sov. İKP MK-nın III qurultayından sonra ölkədə yeni sosial-ideoloji mühitin formalaşması, Stalin repressiyalarının,

şəxsiyyətə pərəstişin qəti şəkildə pislənilməsi, bunların sovet vətəndaşlığına vurulan zərbə kimi dəyərləndirilməsi bütün keçmiş ittifaq respublikalarında nisbi mənəvi sərbəstliyə səbəb olmuş, mədəniyyətdə, o cümlədən, ədəbiyyatda yeni dəyər prinsiplərinin, istiqamətlərin meydana gəlməsinə yol açmış, bu isə incəsənətdə 60-cılar nəslinin yetişməsinə şərait yaratmışdır. AYİ-də aparılan ədəbi müzakirələrdə 60-cıların müdafiəsi və təqdir olunması sonralar milli şüurun möhkəmləndirilməsində bu birliyin mühüm rol oynamasını şərtləndirmişdir;

– 80-ci illərdə AYİ-də bədii nəsrdə tarixiliyin hansı səviyyədə əks olunması, tarixi gerçəkliyə yazıçının hansı müstəvidən baxması, sənətkarın tarixi mövzunu işləmə bacarığı, tarixi roman janrının səciyyəvi xüsusiyyətləri kimi problemlərin müzakirəsi yazıçıların tarixi həqiqətə bədii təxəyyülün məhsulu kimi toxunduqda canlandırdığı dövrün mənzərəsini düzgün təcəssüm etdirməsinə, tarixi həqiqətlərin bədii əksini tapdığı əsərlərin inkişafına rəvac vermişdir;

– AYB-nin XX əsrin 90-cı illərində ədəbi prosesin inkişafında, onun əsas istiqamətinin doğru müəyyənləşdirilməsində, bədii yaradıcılıqda həyat həqiqətlərinə sadiqlik prinsipinin qorunub saxlanmasında xüsusi rolu olmuşdur. Birlik 90-cı illərin ağrı-acısından kənarda qalmamış, milli azadlıq uğrunda mücadilədə, torpaqlarımızın mənfur qonşularımız tərəfindən işğalına qarşı mübarizədə fəal iştirak etmiş, Azərbaycan ədəbi-tənqidi fikri yazıçılarımızı Qarabağ həqiqətlərini, müharibə dəhşətlərini dünya ictimaiyyətinə çatdırmağa təşviq etməklə xalqımızda mübariz ruhu formalaşdıran əsərlərin yaranmasında əhəmiyyətli rol oynamışdır.

**Dissertasiya işinin əsas məzmunu və müddəaları aşağıdakı məqalə və tezislərdə öz əksini tapmışdır:**


1. 1920-30-cu illərin ideoloji sistem dəyişikliyi və ədəbi proses // – Bakı: İpək yolu, Azərbaycan Universitetinin elmi jurnalı, – 2019. № 1, – s. 71-77.
2. XX əsrin ilk onilliklərində Azərbaycanda “köhnə” və “yeni” ədəbiyyat arasında ideoloji mübarizə // – Bakı: Risalə araşdırmalar toplusu, – 2019. № 1 (16), – s. 122-131.
3. Repressiya və ədəbiyyat // – Bakı: Azərbaycan, ədəbi-bədii jurnal, – 2019. № 12, – s. 175-181.
4. Объединения писателей и поэтов начала XX века и литературный процесс // – Ужгород, Закарпатські філологічні студії, – 2019. № 8 т. 1, с. 143-144.
5. Футуризм и вольный стих в литературных дискуссиях в первой половине XX века // Сборник трудов Международной заочный научно-практической конференции молодых исследователей, Астраханский Университет, – 2020. – с. 25-28.
6. XX əsrin II yarısında ədəbi müzakirələrdə vəzn problemi // “Klassik Azərbaycan ədəbiyyatı və incəsənətininn milli özünütəsdiqdə və mərkəzi Asiyadakı mədəni tərəqqidə yeri” mövzusunda Beynəlxalq elmi konfransın materialları, – Bakı: – 23-25 dekabr, 2020. – s. 127-129.
7. Qarabağ müharibəsinin bədii ədəbiyyatda təcəssüm problemi // – Bakı: İpək yolu, Azərbaycan Universitetinin elmi jurnalı, – 2021. № 4, – s. 116-121.
8. Yazıçılar İttifaqının ədəbi müzakirələrində 1950-80-cı illərin tənqidi // – Bakı: Risalə araşdırmalar toplusu, – 2021. № 2 (21), – s. 80-91.
9. Sovet dövründə ana dilimizə qayğı // Gənc tədqiqatçıların IV Respublika Elmi-praktik konfransının materialları, – Bakı: Azərbaycan Universiteti, – 2021. – s. 103-104.
10. Azərbaycan Yazıçılar Birliyinin sədri Anar şəxsiyyətinin ədəbi diskussiyalarda tənzimləyici rolu // – Bakı: İpək yolu,

Azərbaycan Universitetinin elmi jurnalı, – 2022. № 1 (22), – s. 113-117.
11. Heydər Əliyev və Azərbaycan Yazıçılar Birliyi // "Heydər Əliyevin mədəniyyət siyasəti: Şuşadan Lənkərana" mövzusunda respublika elmi-nəzəri konfransının materialları, – Lənkəran: – 7 may, – 2022, – s. 89-103.
12. Milli ədəbiyyatımızın böyük hamisi Heydər Əliyev // – Bakı: İpək yolu, Azərbaycan Universitetinin elmi jurnalı, – 2023. № 1 (23), – s. 13-19.

Dissertasiyanın müdafiəsi "20" oktyabr 2023-cü il tarixində *saat 14:00- da* Azərbaycan Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi nəzdində fəaliyyət göstərən ED 1.31 – Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ-1001. Bakı şəhəri. İstiqlaliyyət küçəsi, 53.
Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi.

Dissertasiya ilə Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat "18" *sentyabr 2023-cü il* tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 15.09.2023

Kağızın formatı: A5

Həcm: 39 143

Tiraj: 100